2024

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

# Bülleten
# DEKABR

# Mərkəzi Bank tərəfindən "Risk əsaslı nəzarət üzrə Siyasət Konsepsiyası" təsdiq edilib

Azərbaycan Mərkəzi Bankı Dünya Bankı ilə birgə həyata keçirilən "Maliyyə sektorunun modernizasiyası layihəsi" çərçivəsində "Risk əsaslı nəzarətin tətbiqi üzrə yeni Siyasət Konsepsiyası"nı təsdiq edib. Bu Konsepsiya maliyyə sektorunda mütərəqqi beynəlxalq təcrübəyə uyğun effektiv nəzarət sisteminin qurulmasına və nəticədə maliyyə sektorunda sistem riskinin minimallaşdırılmasına xidmət edir.

Bununla yanaşı, Konsepsiya sənədi yerli və beynəlxalq ictimaiyyətlə Mərkəzi Bankın yeni nəzarət yanaşması ilə bağlı kommunikasiyanı təmin edəcəkdir.

Konsepsiyaya əsasən, formalaşdırılmış ARAS (Azerbaijan Risk Assessment System - Azərbaycan Risklərin Qiymətləndirilməsi Sistemi) adlandırılan risk əsaslı nəzarət yanaşması özündə nəzarət subyektlərinin fəaliyyətləri ilə bağlı risklərin erkən aşkarlanmasını, onların və risk idarəetməsi proseslərinin qiymətləndirilməsini, habelə risklərə uyğun proporsional və preventiv nəzarət rejiminin tətbiqini ehtiva edir.

Sözügedən sənəd risk əsaslı nəzarət dövrünü konseptual şəkildə ehtiva etməklə yanaşı, risk əsaslı nəzarətin təşkilati quruluşunu, o cümlədən Nəzarət Komitəsinin, habelə digər strukturların funksiyalarını müəyyən edir. Nəzarət Komitəsi nəzarət təlimatlarının təsdiqi, əsaslandırılmış mülahizənin formalaşdırılması, nəzarət təcrübələrinin nəzərdən keçirilməsi, illik nəzarət planları və nəzarət prioritetləri layihəsinin İdarə Heyətinə təqdim edilməsi kimi funksiyaları icra edəcəkdir. Konsepsiya eyni zamanda Mərkəzi Bankın "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"nda müəyyən edilmiş aşağıdakı hədəflərə nail olunmasına dəstək verəcəkdir:

- Banklara kapital və likvidlik tələblərinin "Bazel III" standartlarına uyğunlaşdırılması;
- Sığorta sektorunda "Solvency II" standartlarının tətbiqi;
- Kapital bazarında "IOSCO" prinsiplərinin implementasiyası;
- Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə və bazar davranışlarına nəzarətin təkmilləşməsi.

Əlavə olaraq, bildiririk ki, Konsepsiyanın tətbiqi nəzarət texnologiyaları (SupTech) və rezolyusiya çərçivəsinin təkmilləşməsi ilə dəstəklənəcəkdir.

Konsepsiya sənədi ilə bu keçiddən istifadə etməklə tanış ola bilərsiniz: https://uploads.cbar.az/assets/7fd12f0749b180441d54cd4de.pdf

# İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində ASA ilə görüş keçirilib

Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) İcraçı direktoru Elmar Mirsalayev ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İcraçı direktoru, professor Vüsal Qasımlı arasında görüş keçirilib.

Görüşdə sığortanın iqtisadiyyatda rolunun artırılması, sığorta sektorunda yeni trendlər və qurumlararası ikitərəfli münasibətlər geniş müzakirə olunub.

İİTKM-in İcraçı direktoru Vüsal Qasımlı çıxışında sığortanın Mərkəz və ölkəmiz üçün əhəmiyyətinə toxunub. Qeyd edib ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədlərində də sığorta inkişafı, xüsusilə də iqtisadiyyatda rolunun artırılması və hər il üçün 10%-lik böyümə ilə bağlı hədəf minimumu müəyyənləşdirilib. V.Qasımlı həmçinin sığorta sektorunda son illərdə real islahatlar fonunda aktiv böyümənin müşahidə olunduğunu da vurğulayıb.

ASA-nın İcraçı direktoru Elmar Mirsalayev öz növbəsində sığorta sektorunda nəzarətedici orqan olan Azərbaycan Respublikasının Mərkəzi Bankının bilavasitə iştirakı ilə həyata keçirilən islahatlar və ASA-nın fəaliyyəti haqqında məlumat verib. Qeyd edib ki, yerli sığorta bazarı "Milli Prioritetlər" sənədində sığorta sektorunun böyüməsinə dair müəyyən olunmuş 10%-lik hədəf minimumunu 2021-ci ildə 16%, 2022-ci ildə 18%, 2023-cü ildə isə 26% böyümə ilə üstələyərək qeyri-neft sektoru üzrə ÜDM-dəki payını 1%-in üzərinə yüksəldə bilib. İcraçı direktor həmçinin yerli sığorta sektorunun beynəlxalq münasibətlərindən, o cümlədən ASA-nın həmtəsisçiliyi və 5 türk dövlətinin üzvlüyü ilə yaradılmış Türk Dünyası Sığorta Birliyindən də danışıb.

Daha sonra görüşdə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən hazırlanmaqda olan və sığortada yeni texnologiyaların qazandıracağı üstünlüklərdən bəhs edən "Insurtech" dərslik nəşri layihəsi haqqında müzakirə aparılıb.

Görüşdə həm sığortanın iqtisadiyyatda rolunun artırılması istiqamətində birgə addımların atılması, həm də qurumlararası ikitərəfli münasibətlərin sistemli təşkili yönündə razılığa gəlinib.








## ASA ölkəmizdə keçirilən "VIII Beynəlxalq Bankçılıq Forumu"nda iştirak etdi



Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayev və Assosiasiya üzvləri ölkəmizdə keçirilən "VIII Beynəlxalq Bankçılıq Forumu"nda iştirak edir. Maliyyə-bank sahəsində tənzimləyici və nəzarət orqanlarının, kommersiya banklarının, fintech şirkətlərinin, dövlət və özəl qurumların, eləcə də tanınmış maliyyə institutlarının iştirak etdiyi Forum "Etibarlı, təhlükəsiz və dayanıqlı bankçılıq" mövzusuna həsr olunub.

## ASA nümayəndələri Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər

Azərbaycan Sığortaçılar Assosiasiyasının rəhbərliyi və kollektivi Ulu Öndər Heydər Əliyevin vəfatının ildönümü ilə bağlı Fəxri Xiyabanda olublar. Assosiasiya nümayəndələri xalqımızın ümummilli lideri, müasir və müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edib, məzarları önünə gül dəstələri qoyublar.



## ASA Tədris Mərkəzi karyerə sərgisində iştirak etdi




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin və Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin SABAH qrupları layihəsi çərçivəsində SABAH qruplarının 10 illik yubileyinə həsr olunan Tələbə-Məzun Forumu və Karyera Sərgisinin keçirildi. Azərbaycan Sığortaçılar Assosiasiyası və ASA Tədris Mərkəzi sərgidə xüsusi stendlə iştirak etdi.

## Qlobal kiber sığorta bazarı ilə bağlı böyümə proqnozu açıqlandı

“SNS Insider”-in hesabatına görə, 2023-cü ildə 15,3 milyard dollar həcmində olan qlobal kiber sığorta bazarının illik 22.8%-lik artım dinamikası ilə 2032-ci ilə qədər 97,3 milyard dollara çatacağı gözlənilir. Rəqəmsal texnologiyaların genişlənməsi nəticəsində fişinq və məlumatların pozulması halları intensiv olaraq qeydə alınır. Bu da bizneslər üçün kiber sığorta məhsulunu aktuallaşdırır.



## Təbii fəlakətlər 2024-cü ildə 310 milyard dollar zərərə səbəb oldu



“Swiss Re” 2024-cü ildə təbii fəlakət itkiləri ilə bağlı açıqlama yayıb. Təbii fəlakətlərin dünya miqyasında 310 milyard dollar həcmində iqtisadi itkiyə səbəb olduğu bildirilir. Bu da 2023-cü illə müqayisədə 6% çoxdur. Ümumi itkilərdə sığortalanmış zərərin həcmi isə əvvəlki illə müqayisədə 17% artaraq 135 milyard dollara çatıb. “Swiss Re“ qeyd edir ki, sığortalanmış zərərlər ardıcıl 5-ci ildir ki, 100 milyard dolları ötür.

## 12-ci “Qlobal Sığorta Bazarı Hesabatı”: 2025-ci ildə sığortaçıları nə gözləyir?

Beynəlxalq Sığorta Nəzarətçiləri Assosiasiyasının (IAIS) dərc etdiyi 12-ci “Qlobal Sığorta Bazarı Hesabatı”na əsasən, qeyri-müəyyən makroiqtisadi və geosiyasi şəraitə baxmayaraq, qlobal sığorta sektorunun 2025-ci ilə olan proqnozu sabit olaraq qalır. Hesabata görə, faiz dərəcələrinin dəyişməsi və uzunömürlülük riski kimi çətinliklərə baxmayaraq, həyat sığortası şirkətlərinin güclü kapital ehtiyatları və risklərin effektiv idarə edilməsi sayəsində ödəmə qabiliyyəti əmsallarını saxlaması və ya yaxşılaşdırması gözlənilir. Qeyri-həyat sığortaçıları risk əsaslı idarəetmə siyasəti yürütməyi və investisiya gəlirləri ilə dəstəklənən sabit maliyyə adekvatlıq əmsallarını saxlamağı hədəfləyirlər.



## Sığorta dələduzluqlarının araşdırılması mexanizmlərinə tələbat artır



Asiya-Sakit Okean regionunda fırıldaqçılığın aşkarlanması texnologiyasına tələbat artır. “Global Market Insights”-in hesabatına görə, 2023-cü ildə 4,2 milyard dollar dəyərində qiymətləndirilən qlobal sığorta fırıldaqlarının aşkarlanması bazarının illik 25%-lik böyümə tempi ilə 2032-ci ilə qədər 31,8 milyard dollara çatacağı gözlənilir. Bazarın böyüməsi süni intellekt, “machine learning” və sığorta sənayesində real vaxt rejimində monitorinq və proqnozlaşdırıcı fırıldaqçılığın aşkarlanmasına imkan verən böyük məlumat analitikasındakı irəliləyişlərdən qaynaqlanır.






QROUP

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***5 727.35 AZN***

İPƏK YOLU SIĞORTA



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***3 082 AZN***



Xalq Sığorta




*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***34 823 AZN***



*Sığorta növü: İpoteka krediti üzrə borcalanların həyat sığortası*
*Sığorta hadisəsi: Müddətsiz əlillik (Xəstəlik nəticəsində)*
*Ödənilmiş sığorta məbləği: **22 406,6 AZN***

*Sığorta növü: Nəqliyyat vasitələrinin tam sığortası*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği: **26 035 AZN***





*Sığorta növü: Həyatın yaşam sığortası*
*Sığorta hadisəsi: Sığorta olunanın yaşaması halı*
*Ödənilmiş sığorta məbləği: **16 205,99 AZN***

MEQA SIĞORTA





*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***19 710 AZN***



PASHA Life

*Sığorta növü: Həyatın yaşam sığortası*
*Sığorta hadisəsi: İstehsalatda bədbəxt hadisə peşə qabiliyyətinin itirilməsi*
*Ödənilmiş sığorta məbləği:* ***86 765,17 AZN***

PAŞA Sığorta









*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***44 011,01 AZN***

## “Qala Sığorta” Xankəndi şəhərində nümayəndəlik açdı




“Qala Sığorta” ASC sayca 15-ci nümayəndəliyini Xankəndi şəhərində açıb. Təntənəli açılış mərasimi 6 dekabr 2024-cü ildə baş tutub. Açılış mərasimində Xankəndi şəhərinin rəsmiləri, şirkətin İdarə Heyətinin və İdarə Heyətinin üzvləri, Qarabağ müharibəsi iştirakçıları olmuş əməkdaşlar iştirak ediblər.

Müasir standartlara cavab verən Xankəndi nümayəndəliyində yalnız yerli sakinlər çalışacaq. Bununla da şirkət işğaldan azad edilmiş ərazilərdə biznes mühitinin və məşğulluğun təmin olunmasına öz töhfəsini verib. Xatırladaq ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında xidmətlər şəbəkəsinin genişləndirilməsi “Qala Sığorta” sığorta şirkətinin yeni üçillik strateji planlaşdırmasında prioritet təşəbbüslərdən biridir.

## “S&P Global Ratings” “PAŞA Sığorta”nın fəaliyyətini "BB+" reytinqinə yüksəltdi




“S&P Global Ratings” beynəlxalq reytinq agentliyi ölkəninaparıcı sığorta şirkətlərindən olan "PAŞA Sığorta" ASC-nin emitentin uzunmüddətli kredit reytinqini və maliyyə dayanıqlılığı reytinqini "BB+", səviyyəsinə yüksəldib,reytinq üzrə proqnozu isə “Sabit” səviyyəsində təsdiqləyib.
Bu qərar şirkətin maliyyə risklərinin daha güclü idarə olunması və kapitalın dayanıqlığı ilə bağlı müsbət dəyişiklikləri əks etdirir.
“S&P Global Ratings” agentliyinin açıqlamasında bildirilir ki, “PAŞA Sığorta” 2024-cü ildə Azərbaycanın sığorta bazarında lider mövqeyini qoruyub saxlayır. Şirkətin ümumi sığorta haqları 2024-cü ilin ilk 10 ayı ərzində 264 milyon AZN təşkil edib ki, bu da bazarın böyük hissəsini əhatə edir. Belə ki, qeyri-həyat sığorta sektorunda şirkətin bazar payı 2023-cü illə müqayisədə 49%-dən 53%-ə qalxmışdır, Əlçətan müştəri xidmətləri, brendin tanınma faizinin yüksək olması və diversifikasiya olunmuş biznes modeli şirkətə rəqabət üstünlüyü təmin edir.

# “Atəşgah” Sığorta Şirkəti ASC - 28

1996-cı il dekabr ayının 18-də rəsmi dövlət qeydiyyatından keçib və 1997-ci ilin fevral ayının 13-dən etibarən lisenziyalı sığorta fəaliyyətini həyata keçirir. Şirkət yerli sığorta bazarında təqdim olunan hər növ qeyri-həyat sığortası məhsullarının satışını həyata keçirir. 2021-ci ilə olan hesabata görə, 5 milyon 8 min 5 yüz manat nizamnamə kapitalına malikdir. Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun üzvüdür.

Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq “Atəşgah” Sığorta Şirkəti ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.

AtəşgahSığorta



# “Azərbaycan Sənaye Sığorta” ASC - 28

1996-cı il dekabr ayının 17-də rəsmi dövlət qeydiyyatından keçib. 29 könüllü, 4 icbari olmaqla, 33 növ üzrə sığorta xidməti göstərən “Azərbaycan Sənaye Sığorta” ASC-nin səhmlərinin 95% “Anadolu Investment Company” MMC-yə, 5%-i isə “Azərbaycan Sənaye Bankı” ASC-yə məxsusdur. 2014-cü ilə olan hesabata görə, şirkətin nizamnamə kapitalı 11 milyon manata çatdırılıb. Şirkət Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun üzvüdür. Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq “Azərbaycan Sənaye Sığorta” ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.



# “Qala Sığorta” ASC - 26

24 dekabr 1998-ci il tarixdə “American International Group Inc.” (AIG) və yerli “Caspian Insurance” Sığorta Şirkəti arasında Azərbaycanda və Gürcüstanda xidmət göstərmək üçün birgə müəssisə olaraq təsis edilib. Şirkət, “AIG Caspian Insurance Company” adı ilə fəaliyyətə başlayıb. 30 sentyabr 2015-ci il tarixdə Azərbaycanın ilk və yeganə təkrarsığorta şirkəti olan “AzRe Təkrarsığorta” ASC “Çartis Azərbaycan” Sığorta Şirkətinin səhmlərinin 100% almışdır və şirkətin adı “Qala Sığorta” ASC olmuşdur. Şirkət çoxşaxəli icbari və könüllü sığorta xidmətləri təklif etməkdədir. 9 yanvar 2023-cü il tarixdə Mərkəzi Bank “Qala Sığorta” şirkətinə təkrarsığorta fəaliyyəti göstərmək üçün lisenziya vermişdir. Şirkət İSO Beynəlxalq Standartlaşdırma Sistemi çərçivəsində İSO 9001:2015 və İSO 10002:2018 standartları üzrə sertifikatlara sahibdir.
Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq “Qala Sığorta” ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.



ASA

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI